**Dəyişilib AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AVROPA İTTİFAQINDA İNTEQRASİYA PROSESLƏRİNİN XÜSUSİYYƏTLƏRİ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

İxtisas: 5908.01 – Siyasi nəzəriyyə

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Şəbnəm İlqar qızı Zeynalova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI-2022**

Dissertasiya işi "Xəzər" Universitetində yerinə yetirilmişdir

Elmi rəhbər: siyasi elmlər doktoru
**Ramiz Məmmədəli oğlu Sevdimalıyev**

Rəsmi opponentlər: siyasi elmlər doktoru , prof. əv.
**Elşad Mirbəşir oğlu**

siyasi elmlər üzrə fəlsəfə doktoru ,dos.
**Samir Sabir oğlu Həmidov**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**Nurəddin Nizami oğlu İbrahimov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, biologiya elmləri doktoru, akademik
**rxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: siyasi elmlər doktoru, professor əvəzi
**Ziyafət Ziya qızı Həbibova**

Elmi seminarın sədri: fəlsəfə elmlər doktoru, professor
**Əlikram Zakir oğlu Abdullayev**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Dünyanın qloballaşma tendensiyasının və iqtisadiyyat sahəsində müxtəlif ölkələrin milli təsərrüfat komplekslərinin obyektiv surətdə artan qarşılıqlı əlaqəsi və asılılığının konkret ifadəsi olaraq inteqrasiya prosesləri praktiki olaraq bütün qitələri əhatə etdi. Bu proseslər beynəlxalq münasibətlər sistemində, o cümlədən, beynəlxalq iqtisadi münasibətlər sistemində baş verən obyektiv proseslər və tendensiyalar ilə şərtlənir.

Qlobal və regional səviyyələrdə baş verən bu proseslərin həm nəzəri, həm də praktiki aspektləri getdikcə daha çox aktuallaşır. Tədqiqat mövzusunun aktuallığını konkret olaraq aşağıdakı müddəalarla ifadə etmək olar:

- dövlətlərarası münasibətlər sistemində ümumi sülhün və təhlükəsizliyin qorunması, dövlətlər arasında iqtisadi əməkdaşlığın inkişafı və həmçinin terrorizm, ekstremizm, separatçılıq kimi çağırışlarla mübarizə, siyasi, iqtisadi, ekoloji, sosial məsələlərin tənzimlənməsi zərurəti və s. problemlərin həll edilməsi müxtəlif inteqrasiya modellərinin yaranmasına səbəb olur və inteqrasiya anlayışının mahiyyətinin və məzmununun müəyyən edilməsi zərurətini meydana gətirir. Eyni zamanda, bu problemin həllinə müxtəlif konseptual yanaşmalar irəli sürülür ki,onların da siyasi elm çərçivəsində öyrənilməsi zərurəti yaranır.
- İnteqrasiya xarakterli dövlət birliklərinin yaranmasına səbəb olan inteqrasiya proseslərinin inkişaf səviyyəsi həm vahid siyasi, həm də iqtisadi və hüquqi məkanın formalaşmasına gətirib çıxarır. Bu prosesin ən yüksək səviyyəsi Avropada əldə edilmişdir. Aİ Avropa qitəsində inteqrasiya proseslərinin inkişafında vacib rol oynayır və onların effektiv nizamlanmasında nümunə qismində çıxış edir. Bu səbəbdən dünyada ən uğurlu inteqrasiya birliyi olan Aİ çərçivəsində inteqrasiya proseslərinin inkişaf perspektivlərin müəyyən edilməsi və araşdırılması seçilmiş tədqiqat mövzusunun aktual bir problemə həsr olunmasına dəlalət edir.
- Uğurlu inkişafı ən çox Avropada olmuş və tədricən, mərhələ-mərhələ baş vermiş inteqrasiya proseslərinin tədqiqi, bu proses zamanı qanunauyğunluqların müəyyən edilməsi və perspektivləri və bununla

yanaşı həm regional, həmçinin universal səviyyədə müxtəlif inteqrasiya proseslərində Azərbaycan Respublikasının mümkün iştirakının optimal modelinin hazırlanması və tərtib edilməsi Azərbaycan siyasi elmi üçün böyük maraq kəsb edir. Belə ki, öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının iqtisadi inkişafının strateji istiqamətlərindən biri Avropa iqtisadi məkanına inteqrasiya olunmaqdan ibarətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi, Avropa İttifaqı öz üzvlərini dəstəkləyən dünya təşkilatının ən yaxşı təcrübəsini əks etdirir. Hər bir ölkə, o cümlədən, Azərbaycan Avropa İttifaqı standartlarına müvafiq olaraq, yüksək həmrəylik səviyyəsinə çatmağa çalışmalıdır.[1]

Müasir dövrdə Azərbaycan və Aİ öz qarşılıqlı münasibətlərinin dərinləşdirilməsi və sonrakı inkişafı məqsədilə əməkdaşlıq və inteqrasiya prosesləri mexanizminin yeniləşdirilməsində maraqlıdırlar. Bu problemlərin həll edilməsi xüsusi aktuallıq kəsb edir və bizim ölkənin politologiya elmi qarşısında duran vacib məsələlərdən biridir. Azərbaycan Respublikası və Aİ arasında münasibətlərin daha da dərinləşməsi və inteqrasiya proseslərinin təkmilləşdirilməsinin araşdırılması hazırki tədqiqat işinin əsas istiqamətini təşkil edir və onun aktuallığını müəyyənləşdirir.

Aİ-da inteqrasiya proseslərin xüsusiyyətlərinin və bu sahədə problemlərin və perspektivlərin və bununla bərabər Azərbaycanın Aİ ilə əməkdaşlığının tədqiq edilməsi Azərbaycanın siyasi elmində nisbətən az araşdırılmış problemlərdən biridir. Bu problematikanın ayrı-ayrı aspektlərinə Azərbaycanlı müəlliflərdən H.Hüseynovanın, R.M. Sevdimalıyevin, S.Həmidovun, R.S.Qasımzadənin[2] və s. əsərlərində toxunulmuşdur. Həmçinin, qeyd etmək lazımdır ki, ölkəmizin siyasi elmində Aİ çərçivəsində inteqrasiya proseslərinin

[1] Əliyev, İ.H. İnkişaf – məqsədimizdir. 65-ci kitab. B: Azərnəşr, 2018, - s. 343-344.

[2] Hüseynova, H.K. Azərbaycan Avropaya inteqrasiya proseslərində (1991-1997) / H. K. Hüseynova. - Bakı: Hərbi Nəşriyyat, -1998. - 280 s; Sevdimalıyev, R.M. Avropa İttifaqının Cənubi Qafqaz siyasəti: birtərəfli texniki yardımdan çoxtərəfli əməkdaşlığa doğru // - Bakı: Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2017. № 1 (49).- s. 69-78; Həmidov, S. Avropa İttifaqında siyasi inteqrasiya prosesləri və Azərbaycan / S. Həmidov. - Bakı: Qanun, 2011. - 328 s.;Qasımzadə, R.S. Avropa İttifaqı və Azərbaycan: “Yeni Qonşuluq Siyasəti” / R.S. Qasımzadə. – Bakı: “Adiloğlu” nəşriyyatı, 2011. - 152 s.

xüsusiyyətləri və bu sahədə problemlər və perspektivlərlə bağlı problemin tədqiq edilməsinə həsr olunmuş monoqrafik xarakterli xüsusi bir tədqiqat işi mövcud deyil. Hazırki dissertasiya işi bu boşluqların aradan qaldırılmasına yönəlib.

Hazırki tədqiqat işinin nəzəri əsasını H. Hüseynova, R.S. Qasımzadə, S.Ə. Eyvazova, R.M. Sevdimalıyev, Ə.İ. Sadıqov, Ü. Abbasova, Ə.İ. Bayramov və s. kimi Azərbaycan alimlərinin əsərləri təşkil etmişdir. Dissertasiya işinin yazılmasında müəllif Q.Qorniq, O.Vitviskaya, O.M. Meşeryakova, S.Y. Kaşkin, M.N. Şumskiy, Y.M. Yumaşev[3] s. kimi aparıcı postsovet ölkələri alimlərinin elmi əsərlərinə müraciət etmişdir.

Dissertasiya işinin yazılması prosesində müəllif həmçinin B. Balassa, E. Dragomir, A.P. Fimister, A.Niemann, P.C. Schmitter, J.Bulbitt, M. Burgess, B.Rosamond, A.Spinelli *S.*Atatüre*,* J.J. Grimmett, J.H. Jakson, V.Feld, K. Cemalettin, S. Artan[4] və s. kimi digər xarici ölkələrin alimlərinin elmi əsərlərindən də istifadə etmişdir. Bununla yanaşı, çoxsaylı beynəlxalq aktlardan, o cümlədən Avropa

---

[3] Витвицкая, О. Право Европейского союза / О. Витвицкая, Г. Горниг. – СПб: Питер, 2005. - 256 с; Юмашев, Ю.М. Правовая эволюция Европейских Сообществ: до и после Маастрихта //- М.: Моск. журнал международного права, 1992. № 3.- с. 73-92.

[4] Balassa, B. The Theory of Economic Integration / B. Balassa. – London: Allen & Unwin Ltd., 1962. - 304 p. ; Dragomir, E. The creation of the Council for Mutual Economic Assistance as seen from the Romanian archives // - Oxford: Historical Research, 2015, vol. 88, issue 240. - pp. 355-379.; Fimister, A.P. Robert Schuman: Neo-Scholastic Humanism and the Reunification of Europe (Philosophy and Politics). - Brussels: P.I.E. Peter Lang, 2008. - 286 p. ;Neamann, A., Schmitter, P.C. Neofunctionalism // European Integration Theory. Edit. Wiener, A., & Diez, T. Oxford: Oxford University Press, 2004, - p. 45-66.;Bulbitt, J. Federalizm // The Oxford Concise Dictionary of Politics./ J.Bulbitt. – Oxford: Oxford Press, 1996.;Burgess, M. Federalism and Federation in Western Europe./ M. Burgess M. - London: Croom Helm, 1986. – 227 p.;Rosamond, B. Theories of European Integration. New York: Palgrave, 2008.-232 p.;Spinelli, A. The growth of the European movement since the Second World War. London, 1972.; Atatüre, S. The Historical Roots of European Union: Integration, Characteristics, and Responsibilities for the 21st Century // - *Alton: European Journal* of Social Sciences – Volume 7, Number 2. 2008. - pp. 18 – 32.; Cemalettin, K., Artan, S. "The Impact of a Customs Union on Turkey's Foreign Trade // - Studies in Business and Economics, 2009. - pp. 16 – 26.

İttifaqının zəngin praktikasından istifadə edilmişdir. Dissertasiya işinin yazılmasında həmçinin internet resurslarından əldə edilmiş materiallardan da geniş istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyektini Avropa İttifaqı çərçivəsində cərəyan edən və müxtəlif sahələri əhatə edən inteqrasiya prosesləri, həmçinin Aİ və Azərbaycan Respublikası arasında bu sahədə əməkdaşlıq prosesləri, predmetini isə Aİ-də inteqrasiya proseslərində əmələ gələn problemlərin və bu qurumun inkişaf perspektivlərinin tədqiq edilməsi və Azərbaycan Respublikasının Aİ ilə siyasi, iqtisadi və s. münasibətlərin inkişafı perspektivləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi Aİ-də inteqrasiya proseslərinin gedişində yaranan problemlərin və bu qurumun inkişaf perspektivlərinin, həmçinin Aİ-nin Azərbaycan Respublikası ilə əməkdaşlığının, o cümlədən, tərəflər arasında inteqrasiyanın inkişafının perspektivlərinin tədqiq edilməsindən ibarətdir.

Bu məqsədə nail olunması üçün dissertasiya işində aşağıdakı **vəzifələr** qoyulmuş və yerinə yetirilmişdir:

- Müasir dövrdə beynəlxalq inteqrasiya anlayışın müəyyən edilməsi;
- Aİ inteqrasiya proseslərinə dair siyasi nəzəriyyələrin (federalizm, funksionalizm və neofunksionalizm) tədqiq edilməsi;
- Aİ inteqrasiya proseslərinin inkişafının zəmin və şərtlərinin, siyasi və hüquqi mərhələlərinin müəyyən edilməsi və göstərilməsi;
- Azad ticarət zonası, gömrük ittifaqı, ümumi bazarın formalaşmasını zəruri edən amillərin araşdırılması;
- Aİ iqtisadi və valyuta ittifaqının xüsusiyyətlərinin öyrənilməsi, tam iqtisadi və siyasi inteqrasiya fəaliyyətinin tədqiq edilməsi;
- Azərbaycan Respublikası və Aİ arasında münasibətlərin yaranması və inkişafının təhlil edilməsi;
- Azərbaycan Respublikası və Aİ arasında münasibətlərin mövcud müqavilə-hüquqi bazasının təhlili və yeniləşdirilməsi zərurətini müəyyən edən şərtlərin araşdırılması və Azərbaycan

Respublikası ilə Aİ arasında münasibətlərin inkişaf perspektivlərinin müəyyən edilməsi və s.

**Tədqiqat metodları.** Dissertasiya işinin metodoloji əsasını elmi idrakın dialektika metodu və ona əsaslanmış tədqiqatın sistemli, formal-məntiqi, müqayisəli və s. xüsusi-elmi metodları təşkil edir. Belə ki, inteqrasiya anlayışının müəyyən edilməsində formal-məntiqi metoddan, Aİ-də inteqrasiya mərhələlərini tədqiqində müqayisəli, bir vahid qurum kimi Aİ-nin tədqiqində sistemli yanaşma metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəalar dissertasiya tədqiqatının məqsəd və vəzifələrindən irəli gəlir:

1. Müasir siyası elmlər nəzəriyyəsində vahid, universal və birmənalı qəbul edilmiş inteqrasiya tərifi mövcud deyil. Bununla yanaşı inteqrasiya anlayışının bir sıra ümumi ünsürlərini qeyd etmək olar. İnteqrasiya tərifi altında iki və ya daha çox vahidlərin özünün bir sıra tərkib hissələrinin birləşdirilməsi yolu ilə təşkil olunması, qarşılıqlı fəaliyyət göstərməsi, tərəflər qarşısında duran hədəflərə çatmaq məqsədilə əsas fəaliyyət istiqamətlərinin müəyyən edilməsi üçün onun subyektləri tərəfindən razılaşdırılmış sistemin yaradılması başa düşülməlidir.

2. Beynəlxalq inteqrasiyanın inkişafı nəticəsində ümumi maraqlara, məqsədlərə və belə məqsədlərə nail olmaq üçün ümumi strategiyaya malik olan üzv ölkələrin qarşılıqlı əlaqələrində müəyyən amillərin və iqtisadi şərtlərin əmələ gəlməsi tədricən belə ölkələrin sosial-iqtisadi və siyasi sahələrdə də fəaliyyətinin bir-biri ilə bağlılığına gətirir.

3. Müasir dövrdə inteqrasiya proseslərinin yaranması və formalaşmasında bir sıra zəminlərin və şərtlərin olması zəruridir. İnteqrasiya olunan ölkələrin müəyyən bir regiona məxsusluğu, yüksək iqtisadi inkişaf səviyyəsi, iqtisadiyyat strukturunun əsasını bazar iqtisadiyyatının təşkil etməsi, üzv ölkələrin resurs, istehsalat və elmi-texniki cəhətdən bir-birini qarşılıqlı tamamlaması, inteqrasiya proseslərinin yaranması və formalaşmasında inteqrasiyanın lider dövlətinin və ya dövlətlərinin olması, regional inteqrasiyada ümumi tarix kökləri, müəyyən dərəcədə mədəniyyət oxşarlığı, dil və din yaxınlığı vacib əhəmiyyət kəsb edir.

4. Mürəkkəb inteqrasiya fenomenini tam şəkildə izah etməyə qadir olan Avropa inteqrasiyasının ümumi nəzəriyyəsi hələ də yoxdur. Bununla belə, onu tədqiq etmək üçün mövcud siyasi nəzəriyyələr (federalizm, funksionalizm, neofunksionalizm) mühüm vəzifəni yerinə yetirir, o cümlədən, inteqrasiya anlayışını və bu fenomenin inkişaf perspektivlərini müəyyənləşdirir.

5. Aİ çərçivəsində bu quruma üzv dövlətlərin tam iqtisadi və siyasi ittifaqı qurulmuşdur. Buna ümumi və razılaşdırılmış xarici siyasət və təhlükəsizlik siyasətinin aparılması, ümumi vətəndaşlıq institutunun təsis edilməsi, müvafiq səlahiyyətlərə malik olan vahid institusional orqanların yaradılması və s. dəlalət edir.

6. Azərbaycan Respublikası və Aİ arasında münasibətlər bir neçə mərhələlərdən keçmiş və müxtəlif proqram və layihələr (TACİS, TRASECA, İNOGATE, AQS, Şərq Tərəfdaşlığı və s.) çərçivəsində formalaşmışdır. Azərbaycan Respublikası və Aİ arasında münasibətləri sadə əməkdaşlıq formasında deyil, strateji xarakter daşıması kimi səciyyələndirmək olar.

7. Azərbaycan Respublikası və Aİ arasında münasibətlərin tənzimlənməsində tərəflər arasında bağlanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi xüsusi yer tutur. Bu sənəd öz təbiətinə görə beynəlxalq müqavilədir və bir sıra məcburi xarakterli öhdəlikləri var. Bununla belə, Aİ və Azərbaycan Respublikası öz münasibətlərinin inkişafı və inteqrasiya proseslərinin dərinləşdirilməsi məqsədi üçün mövcud olan bazanın yeniləşdirilməsi zərurətini yaradır. Azərbaycan Respublikası və Aİ arasında Modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında yeni saziş tərəflər arasında əməkdaşlığın və inteqrasiya proseslərinin dərinləşdirilməsinin əsasını təşkil edə bilər.

**Tədqiqatının elmi yeniliyi**. Dissertasiya işində:

- Azərbaycan siyasi elmində ilk dəfə olaraq inteqrasiya anlayışının yerli və xarici ölkələrin alimlərinin elmi əsərlərinə istinad edilərək tərifi verilmiş və Aİ-də inteqrasiya proseslərinin zəmin və şərtləri sistemləşdirilmişdir.
- Avropa İttifaqında inteqrasiya proseslərinin tənzimlənməsinə dair çoxsaylı beynəlxalq aktlardan istifadə edilərək ölkə siyasi elmində ilk dəfə olaraq Aİ-da baş verən inteqrasiya proseslərinin xüsusiyyətləri tədqiq olunmuşdur.

- Aİ bir inteqrasiya qurumu kimi təhlil edilərkən bu qurumun formalaşması və inkişafı prosesində siyasi və hüquqi mərhələlər araşdırılmış, bu mərhələlərin həm inteqrasiya proseslərinin tədricən dərinləşməsi, həm də genişlənməsi ilə səciyyələndiyi irəli sürülmüşdür.
- Aİ-də inteqrasiya proseslərinin əsas komponentləri sistemli və ardıcıl şəkildə təhlil edilmişdir.
- Azərbaycan Respublikası və Aİ arasında əməkdaşlıq, o cümlədən, inteqrasiya proseslərinin sistemli yanaşma əsasında politoloji təhlili aparılmışdır.
- Azərbaycan Respublikası və Aİ arasında münasibətlərin mövcud müqavilə-hüquqi bazası təqdim edilmiş, əməkdaşlığın inkişaf etməsi və dərinləşdirilməsinin müxtəlif mümkün istiqamətləri araşdırılmışdır.

**Tədqiqatının nəzəri və praktiki əhəmiyyəti**. Hazırki dissertasiya işi ölkə siyasi elmində Aİ-da inteqrasiya proseslərinin xüsusiyyətlərin nəzəri cəhətdən tədqiq edilməsinə həsr edilmiş ilk monoqrafik xarakterli tədqiqatdır. Bununla yanaşı, hazırki dissertasiya tədqiqatı gələcəkdə bu problematika üzrə elmi işlərin yazılmasında və politologiya, beynəlxalq münasibətlər fənnləri üzrə dərsliklərin (dərs vəsaitlərin) və proqramların hazırlanmasında istifadə edilə bilər. Tədqiqatın yekunlarına görə əldə edilən nəticələr və təkliflər Azərbaycan Respublikası və Aİ arasında münasibətlərin proqnozlaşdırılmasında, Azərbaycan Respublikası və Aİ arasında optimal mexanizmin müəyyən edilməsinə dair təkliflərin hazırlanmasında, xüsusən, Azərbaycan Respublikasının Aİ ilə bağlanması nəzərdə tutulan yeni baza sazişinin tərtib edilməsində istifadə edilə bilər.

Hazırki dissertasiya tədqiqatı tədris-pedaqoji fəaliyyətdə, o cümlədən, “Siyasi elmlər”, “Siyasi institutlar və sistemlər”, “Beynəlxalq münasibətlər”, “Politologiya”, “Beynəlxalq inteqrasiya” və s. üzrə kursların tədris edilməsi prosesində əlavə material qismində istifadə edilə bilər.

**Dissertasiya işinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas elmi müddəaları və nəticələri iddiaçının “Avropa İttifaqı çərçivəsində inteqrasiya prosesləri: problemlər və onların həlli perspektivləri” adlı elmi monaqrafiyasında, elmi-praktiki konfranslarda, Azərbaycan Respublikasında və xaricdə müvafiq elmi jurnallarda nəşr olunmuş 10 elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat.** Xəzər universiteti

**Dissertasiyanın ümumi həcmi.** Dissertasiya işi giriş (16409 işarə), üç fəsildən (262951 işarə), nəticədən (7231 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. İşin işarə ilə ümumi həcmi – 286591 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində dissertasiya tədqiqatının aktuallığı əsaslandırılmış, işin məqsədi və əsas vəzifələri, onun metodoloji əsası, nəzəri və praktiki əhəmiyyəti, işin elmi yeniliyi, müdafiəyə çıxarılan müddəalar və həmçinin tədqiqatın aprobasiya nəticələri göstərilir.

**I Fəsil - "Avropa İttifaqında inteqrasiya proseslərinin həyata keçirilməsinin əsas mərhələləri"** adlanır və dörd yarımfəsildən ibarətdir.***"Beynəlxalq inteqrasiya anlayışı"*** adlanan **birinci yarımfəsil** ümumilikdə beynəlxalq inteqrasiya anlayışının tədqiqinə və beynəlxalq inteqrasiya anlayışı definisiyasının müəyyən edilməsinə həsr edilib.

Müəllif vurğulayır ki, nə beynəlxalq sənədlərdə, nə də elmi ədəbiyyatda ümumqəbuledilmiş "inteqrasiya" anlayışı mövcud deyil.

İddiaçı qeyd edir ki, "inteqrasiya" anlayışından elmi dövriyyədə XX əsrin əvvəllərində daha geniş istifadə edilməsinə başlanmışdır. İnteqrasiya proseslərinin tədqiq edilməsi məsələlərinə H. Spenser, R.Şmed, X.Kelzen, D.Şindler, amerikalılar M.X.Meskon, A.Albert, F.Xedouri, isveçrəli X.Qrünter və s. də öz elmi əsərlərində toxunmuşlar. II Dünya müharibəsindən sonra bu termin beynəlxalq iqtisadi əməkdaşlığın və sonralar beynəlxalq əməkdaşlığın digər formalarına (siyasi, mədəni, elmi və s.) dair istifadə edilməyə başlandı. İnteqrasiya termini ilk dəfə rəsmi olaraq 31 oktyabr 1949-cu ildə Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı Şurasının iclasında bu qurumun inzibatçısı P. Hoffman tərəfindən işlədilmişdir.[5]

İnterqasiya prosesinin mahiyyətinin, onun əsas prinsiplərinin həyata keçirilməsinin, inteqrasiya modellərinin müəyyən edilməsi üçün bu terminə müvafiq tərifin verilməsi zərurəti meydana çıxdı. Elmi

---

[5] Behrman, G. The most noble adventure: the Marshall plan and the time when America helped save Europe / G. Behrman. - New York: Free Press, 2007. - p. 262

ədəbiyyatda müxtəlif "inteqrasiya" təriflərinə rast gəlmək olar (D.V.Trenin,E.A.Yefanova,N.E.Ovçarenko[6]).

Müəllif belə bir nəticəyə gəlir ki, inteqrasiya proseslərinin, müxtəlif dərəcədə olsa da, əsas məqsədi həm regional, həmçinin universal miqyasda səmərəli fəaliyyətin təmin edilməsinin əsasını təşkil etməkdən və dövlətlərin əməkdaşlığının müxtəlif forma və metodlarının intensivləşdirilməsindən ibarətdir.

Müəllif inteqrasiyanın bir sıra əlamətlərini müəyyən edir. *Birincisi,* inteqrasiya birləşmə deməkdir. Yəni, bu halda inteqrasiya növündən asılı olmayaraq ən azı onun iki subyekti olmalıdır. *İkincisi,* inteqrasiya dövlətlərarası xarakter daşımalıdır. *Üçüncüsü,* inteqrasiya könüllü olmalıdır. Yəni, tərəflər bunu istəməli, buna təşəbbüs göstərməli və buna nail olmaq üçün müəyyən səylər göstərməlidir. *Dördüncüsü,* inteqrasiyanın subyektləri müstəqil olmalıdır. *Beşincisi,* inteqrasiya tərəflər üçün faydalı olmalıdır. *Altıncısı,* inteqrasiya əsasən məcburi xarakter daşıyan beynəlxalq sazişlərlə rəsmiləşdirilir.

İnteqrasiya proseslərinin nəzəri aspektlərinin tədqiq edilməsi əsasında müəllif inteqrasiya anlayışının öz tərifini verir. İnteqrasiya iki və ya daha çox vahidlərin özünün bir sıra tərkib hissələrinin birləşdirilməsi yolu ilə təşkil olunan, qarşılıqlı fəaliyyət göstərən, tərəflər qarşısında duran hədəflərə çatmaq məqsədilə əsas fəaliyyət istiqamətlərini müəyyən edilməsi üçün onun subyektləri tərəfindən razılaşdırılmış sistemin yaradılmasıdır.

**I fəslin *"Avropa İttifaqında inteqrasiya proseslərinin inkişafının zəmin və şərtləri*"** adlanan **ikinci yarımfəslində** Avropa İttifaqında inteqrasiya proseslərinin inkişafının iqtisadi-coğrafi və ictimai-siyasi şərtlər və zəminləri araşdırılır.

Aİ-da inteqrasiya proseslərinin inkişafının *iqtisadi-coğrafi zəminlər* arasında müəllif inteqrasiya olunan ölkələrin müəyyən bir regiona məxsus olmasını; yüksək iqtisadi inkişaf səviyyəsini; onların iqtisadiyyatın əsasını sərbəst fəaliyyət göstərən bazar iqtisadiyyatının

---

[6] Овчаренко, Н.Е. Модели современных интеграционных процессов: Материалы к курсу лекций // - М.: Проблемы глобальных интеграционных процессов, 1996. - с. 109 ; Тренин, Д.В. Интеграция и идентичность: Россия как «новый Запад» / Д.В. Тренин. - М.: Издательство «Европа», 2006. - с. 28 ; Ефанова, Е.А. Экономическая сущность интеграции. Предпосылки и виды интеграции // - Орел: Вестник ОрелГИЭТ, 2008. № 4 (6). - с. 24-25

təşkil edilməsini; inteqrasiya olunan ölkələrin resurs, istehsalat və elmi-texniki cəhətdən bir-birinin qarşılıqlı tamamlamasını qeyd edir. İnteqrasiya olunan dövlətlərin iqtisadiyyatlarının bir-birinin qarşılıqlı tamamlaması ilk növbədə bu ölkələrin ixracat strukturlarının müxtəlifliyindən ibarətdir. Müəllifin fikrincə, məhz inteqrasiya olunan dövlətlərdə bir-birini tamamlayan strukturların olmaması bütövlükdə Afrika ölkələrinin inteqrasiyasını ləngidir, digər bir regionda isə ərəb ölkələri arasında inteqrasiyanın aşağı səviyyədə olmasının əsas iqtisadi səbəblərindən birini təşkil edir. Bununla yanaşı, interqasiya proseslərinin formalaşması və inkişafı zəminlər arasında Aİ-yə daxil olan ölkələrdə təhsilin, elmin, texniki inkişafın yüksək səviyyədə olmasını vurğulayır. *Ictimai-siyasi şərtlər və zəminlər* arasında müəllif inteqrasiya olunan dövlətlərin demokratik olması, onlarda siyası plüralizmin hökm sürməsini qeyd edir. Belə dövlətlərdə insan hüquqları və əsas azadlıqlarına hörmət olunmalıdır. Bu dövlətlərdə hakimiyyət bölgüsü olmalı və onlar mahiyyətcə hüquqi dövlət olmalıdırlar və inteqrasiya olunan dövlətlərin əhalisinin əksəriyyətinin bunu istəməsi əsas şərtlərdəndir.

İnteqrasiya proseslərinin yaranması və formalaşmasında *ictimai-siyasi zəminlər* arasında inteqrasiyanın lider dövlətinin və ya dövlətlərinin olmasıdır. Aİ-da belə bir lider dövlətlər Almaniya və Fransadır. Düzdür, hər bir yeni dövlətin Aİ-na üzvlüyü formal olaraq konsensus yolu ilə həyata keçirilir. Lakin, bununla bərabər qeyd etmək lazımdır ki, belə proseslərdə aparıcı rolu məhz bu iki ölkə oynayır. Müəllif qeyd edir ki, elmi ədəbiyyatda digər zəminlərin olmasının vacibliyi də göstərilir. Bunların arasında Aİ-yə üzv olan dövlətlərin ümumi tarixə, ümumi mədəniyyətə malik olması, elm, təhsil sahəsində bir çox oxşarlığın olması vurğulanır. Həmçinin onların bir dinə, xristian dininə mənsub olması da qeyd edilir. Heç də təsadüfi deyil ki, Aİ bəzən xristian klubu da adlandırılır və bəzi nüfuzlu dairələrin bu kluba müsəlman ölkələrinin qəbul olunmasına etiraz etdikləri haqqında deyilir. Halbuki, formal olaraq Aİ dinlə heç bir bağlılığı yoxdur. Müəllif müasir dövrdə inteqrasiya proseslərin yaranması və formalaşması ilə bağlı əsas zəmin və şərtlərin təsnifatını aparır: inteqrasiya olunan ölkələr müəyyən bir regiona məxsus olmalıdırlar (Aİ inteqrasiya qurumu çərçivəsində olan dövlətlər Avropaya məxsusdurlar); Aİ-yə inteqrasiya olunan ölkələr yüksək iqtisadi inkişaf

səviyyəsi ilə səciyyələnirlər; interqasiya proseslərinin yaradılması və inkişafı proseslərində iştirak edən dövlətlərin iqtisadiyyatın əsasını bazar iqtisadiyyatının təşkil etməsidir; interqasiya proseslərinin formalaşması və inkişafında Aİ-na üzv ölkələrin resurs, istehsalat və elmi-texniki cəhətdən bir-birinin qarşılıqlı tamamlanmasıdır; Aİ-yə inteqrasiya olunan dövlətlər öz siyasi quruluşuna görə demokratik ölkələr olmasıdır; Aİ-yə inteqrasiya olunan dövlətlərin əhalisinin əksəriyyəti buna öz ölkə qanunvericiliyinin müəyyən etdiyi qaydasında öz razılığını bildirməlidir. Aİ-yə inteqrasiya olmaq dövlətlərin siyasi rəhbərliyinin iradəsindən də asılıdır; Aİ-yə inteqrasiya proseslərinin yaranması və formalaşmasında inteqrasiyanın lider dövlətinin və ya dövlətlərinin olmasıdır; Aİ-yə inteqrasiya olunmaqda ümumi tarix köklərinin olması, müəyyən dərəcədə mədəniyyət oxşarlığı, dil və din yaxınlığı da vacib əhəmiyyət kəsb edir.

**I fəslin** ***"Avropa İttifaqında inteqrasiya proseslərinə dair siyasi nəzəriyyələr"*** adlanan **üçüncü yarımfəslində** müəllif Avropada inteqrasiya ilə bağlı müxtəlif siyasi nəzəriyyələri, o cümlədən federalizm, funksionalizm və onun əsasında yaranan neofunksionalizm nəzəriyyələrini və onların beynəlxalq inteqrasiya proseslərinə təsiri məsələlərini tədqiq edir. Burada müəllif ilk öncə federalizm (R. Kudenxov-Kalerqi, A.Spinelli, E.Uistriç, M.Albertini və s.) və funksionalizm (D. Mitranı, P.Teylor və s.), daha sonra isə neofunksionalizm (E.Haas, L.Lindberq, F.S. Şmitter, L.Şeyneman və s.) nəzəriyyələrini təhlil edir. Öz yaranmasına görə federalizm nəzəriyyəsi Avropa inteqrasiyasına dair ilk nəzəriyyələrdən biridir. Bu sahədə ən mühüm elmi əsərlərdən biri R. Kudenhov-Kalerqinin nəşr etdiyi "Ümumavropa" əsəri olmuşdur. Bu əsərdə o, Avropanın vahid konstitusiya əsasında birləşməsi ideyasını irəli sürmüşdür. Avropa federalizmi ideyası vahid Avropa xəyallarından ilhamlanaraq Avropa inteqrasiyanın ən geniş yayılmış siyasi nəzəriyyəsinə çevrilmişdir. Bu siyasi nəzəriyyə ilə yanaşı, Avropada inteqrasiya proseslərinə dair funksionalizm nəzəriyyəsi də irəli sürülmüşdür. Bu nəzəriyyənin banisi "Qüvvədə olan sülh sistemi: Beynəlxalq Təşkilatın Funksional İnkişafı üçün Arqument" kitabının müəllifi D. Mitrani hesab olunur. Federalizm tərəfdarlarından fərqli olaraq, funksionalizm tərəfdarları hesab edirdilər ki, "əvvəlcə iqtisadiyyat, sonra isə siyasət", yəni inteqrasiya iqtisadi sahədən başlamalı və yalnız bundan sonra siyasət sahəsinə keçməlidir.

Avropada davam edən inteqrasiyanı izah etməyə çalışan əsas nəzəriyyələrdən biri də neofunksionalizmdir. Bu nəzəriyyənin banisi amerikalı politoloq E. Haas sayılır. Bu nəzəriyyənin digər məşhur simalarına L. Lindberg, A. Niemann, F. Schmitter, L. Scheineman və d. aiddir. Neofunksionalistlərin əsas ideyası ondan ibarətdir ki, inteqrasiya sahələrinin genişlənməsi siyasətçilərin iradəsindən asılı olmayaraq baş verən bir prosesdir. Xüsusilə siyasi inteqrasiya o zaman mümkündür ki, siyasi inteqrasiya iqtisadi inteqrasiyadan ayrılsın. Neofunksionalizm nəzəriyyəsinə görə, bir sahədə bir neçə ölkə arasında inteqrasiya qaçılmaz olaraq digər sahələrdə də inteqrasiyaya gətirib çıxarır. Beləliklə, neofunksionalistlərin fikrincə, inteqrasiya sanki bir sferadan digərinə axır. Bu effektə (*spillover*, yəni hüdudlarını aşaraq axma) deyilir. Avrointeqrasiyaya dair siyasi nəzəriyyələrin əhəmiyyəti məhz Avropa dövlətlərinin birləşməsi üçün nəzəri əsaslandırmanın formalaşdırılması cəhdində ifadə olunur və bu siyasi nəzəriyyələrin ideyaları, bu və ya digər dərəcədə, həm Avropa Birliklərinin, həm də daha sonra Aİ-nin yaranma prosesində öz praktiki reallığını tapmışdır. Müəllif belə bir nəticəyə gəlir ki, mürəkkəb inteqrasiya fenomenini tam şəkildə izah etməyə qadir olan Avropa inteqrasiyasının ümumi nəzəriyyəsi hələ də yoxdur. Bununla belə, onu tədqiq etmək üçün federalizm, funksionalizm və neofunksionalizm kimi mövcud olan siyasi nəzəriyyələr mühüm vəzifəni yerinə yetirir, inteqrasiya anlayışının nə demək olduğunu və bu fenomenin inkişaf perspektivlərini müəyyənləşdirir.

***“Avropa İttifaqında inteqrasiya proseslərinin həyata keçirilməsinin siyasi və hüquqi mərhələləri”*** adlanan ***I fəslin dördüncü yarımfəsilində*** Avropa İttifaqı çərçivəsində inteqrasiyanın həyata keçirilməsinin əsas mərhələləri tədqiq edilir. İddiaçı Avropada inteqrasiyanın formalaşmasının bir sıra mərhələlərini qeyd edir. Bu proses 18 aprel 1951-ci ildə Parisdə Avropa Kömür və Polad Birliyinin (AKPB) təsis edilməsi ilə başladı. Burada əsas fikir fransız-alman kömür və metallurgiya sənayesinin və onun istehsal etdiyi məhsulunun birləşdirilməsindən ibarət idi, çünki onlar iqtisadiyyatın sənaye və energetika sektorlarının əsasını təşkil edirdi. Inteqrasiya prosesləri üzv ölkələrin iqtisadiyyatında digər sahələri də əhatə etməsi və ümumi bazarın yaradılması məqsədilə Romada 25 mart 1957-ci ildə iki beynəlxalq saziş: Avropa İqtisadi Birliyi (AİB) və Nüvə Enerjisi üzrə

Avropa Birliyi (NEAB) haqqında müqavilələr imzalanmışdır. AİB haqqında müqavilə ilə iqtisadi sahədə AKPB müqaviləsi ilə tənzimlənməyən təsərrüfatın bütün sahələrini əhatə edən ümumi bazarın yaradılması nəzərdə tutulurdu. AİB institusional mexanizminin fundamentini AKPB institusional mexanizminin əsasında qoyulmuş rəhbəredici prinsiplər təşkil edirdi. NEAB isə bu quruma üzv olan ölkələrdə nüvə sənayesinin yaranması və inkişafına dair zəruri şərtlərinin yaradılmasına yönəlmişdir. Beləliklə, üç müxtəlif və bir-birindən fərqli olan Birlik –AKPB, AİB və NEAB yaradılmışdır. Bununla belə, bu üç birliyi birləşdirən mühüm amillər mövcud idi. Birincisi, hər üç qurumun üzvləri eyni dövlətlər idi. İkincisi, bu birliklərin üçü də qarşılarına oxşar və ya bir-birinə yaxın məqsədlər qoyurdular. Üçüncüsü, bu birliklərin institusional mexanizmləri demək olar ki, eyni idi. Dördüncüsü, AİB və NEAB-in qanunverici və məhkəmə orqanları hər üç mövcud olan Birliklərə aid institusional orqanlar kimi fəaliyyət göstərirdilər.

Aİ çərçivəsində inteqrasiyanın vacib mərhələsi Aİ-nin bir vahid qurum kimi yaradılması ilə bağlıdır. Bu məqsədlə 7 fevral 1992-ci ildə Maastrixt şəhərində müqavilə imzalanmışdır. Bu sənəd Aİ-nın siyasi qurum kimi fəaliyyət göstərməsinə başlanmasının əsasını təşkil etmiş və Avropa inteqrasiyasının həyata keçirilməsinin yeni, daha yüksək səviyyəsinə çatması üçün atılan addımlardan biri idi.

Aİ-də ilk növbədə inteqrasiya proseslərinin davamı və yeni sahələrə yayılmasına təşkilati və hüquqi bazanın təkmilləşdirilməsi üçün institusional islahatların davam edilməsi zərurəti yaranırdı. Aİ-nin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə 19 oktyabr 2007-ci ildə Lissabonda “Avropa İttifaqı Haqqında Müqaviləni və Avropa Birliyinin Təsis Edilməsi Haqqında Müqaviləni dəyişdirən Lissabon müqaviləsi” imzalanmışdır. Bu Müqavilə Aİ-nin təsisi sənədlərinə müəyyən düzəlişlər etdi. Avropa Birliyi öz fəaliyyətini dayandırır, onun varisi isə Aİ olur. Aİ-nın təsisedici sənədlərini isə Avropa İttifaqı Haqqında Müqavilə - AİM, yəni 1992-ci il Maastrixt müqaviləsi (2007-ci il tarixli Lissabon müqaviləsi redaksiyasında) və Avropa İttifaqının Fəaliyyət Göstərməsi Haqqında Müqavilə - AİFM, yəni 1957-ci il Roma müqaviləsi (2007-ci il tarixli Lissabon müqaviləsi redaksiyasında) təşkil edir. Hər iki təsis sənədi eyni hüquqi qüvvəyə malikdir və bir-birini tamamlayır.

Müəllif belə bir nəticəyə gəlir ki, Aİ bir inteqrasiya qurumu kimi, öz formalaşması və inkişafı prosesində ardıcıllıqla bir sıra siyasi və hüquqi mərhələləri keçmişdir. İlk olaraq inteqrasiya prosesləri müxtəlif sahələrdə qarşılıqlı iqtisadi fəaliyyətdən başlamış və tədricən yeni sahələri-siyasəti, təhlükəsizliyi, elmi, təhsili və humanitar fəaliyyətin digər sahələrini əhatə etmişdir. Bu mərhələlərin hər biri bütövlükdə həm inteqrasiya proseslərinin tədricən dərinləşməsi, həm də bu proseslərinin genişlənməsi ilə səciyyələnirdi.

Dissertasiyanın **II fəsli "Avropa İttifaqı inteqrasiya proseslərinin əsas komponentləri və inkişaf perspektivləri"** adlanır və beş yarımfəsildən ibarətdir. **Birinci yarımfəsildə *"Avropa İttifaqında azad ticarət zonasının yaranması və formalaşması"*** məsələləri tədqiq edilir.

Müəllif qeyd edir ki, beynəlxalq ticarətin inkişafı və səmərəliyi baxımından müxtəlif regionlarda vergi və rüsumlardan azad olan ticarət zonaları yaradılırdı. Dünyada isə ən böyük azad liman hal-hazırda da Hanza şəhəri olan Hamburqdur. Onu müəyyən mənada XII əsrdən başlayaraq XVII əsrin ortalarına qədər mövcud olan Şimal – Qərbi Avropanın 300-ə yaxın ticarət şəhərini birləşdirən siyasi və iqtisadi birlik Hanza ittifaqının[7] məcazi mənada varisi kimi də dəyərləndirmək olar.[8]

Müəllif vurğulayır ki, dünyada inteqrasiyanın müxtəlif növləri arasında əsas yeri Azad ticarət zonaları (ATZ) tutur. Bu, Ümumdünya Ticarət Təşkilatının (ÜTT) məlumatları ilə də təsdiqlənir. Belə ki, 15 iyun 2014-cü il ÜTT-nin məlumatına əsasən azad ticarət zonalarının yaradılması haqqında 585 regional saziş imzalanmışdır (onlardan 379 qüvvəyə minmişdir). Bununla yanaşı, ATZ yaradılmasına dair sazişlər bütün regional ticarət sazişlərin 84%-ni təşkil edir.

Ümumiyyətlə, azad ticarət zonasının dəqiq müəyyən edilmiş tərifinə heç bir rəsmi sənəddə rast gəlinmir. Hər bir konkret halda belə zonanın məqsədləri, vəzifələri, funksiyaları və bu kimi digər parametrləri onun

---

[7] Hammel-Kiesow, R. The Hanseatic League // - The Oxford Encyclopedia of Economic History. Edited by Joel Mokyr, vol. 2, Oxford, 2003. - p. 495-498.

[8] John D. Fudge. Cargoes, Embargoes and Emissaries. The Commercial and Political Interaction of England and the German Hanse, 1450 – 1510 / J. D. Fudge. - Toronto: University of Toronto Press, 1995. - 265 p.

yaranması haqqında ya ikitərəfli, ya da çoxtərəfli sazişlərlə müəyyən edilir.

Bununla belə, müəllifin fikrincə, azad ticarət zonalarını səciyyələndirən bir sıra əlamətləri göstərmək olar. İlk növbədə, belə zonalar müstəqil dövlətlər tərəfindən yaradılır. İkincisi, belə bir zona vahid bir məkanı təşkil edir, iki və ya bir neçə dövlətin ərazisini əhatə edir. Üçüncüsü, belə bir məkanda "oyun qaydaları" demək olar ki, eynidir. Yəni, bu məkanda bütün say məhdudiyyətləri, gömrük vergiləri və rüsumları aradan qaldırılır, əmtəəyə və xidmətlərə aid tələblər eyni xarakter daşıyır və s. Dördüncüsü, digər dövlətlərə eyni gömrük tarifi və rüsumları müəyyən edilir. Beşincisi, bir qayda olaraq, ATZ-nin yaradılması haqqında sazişlər müddətsiz olur.

Aİ-də inteqrasiyanın azad ticarət zonası növündə əmələ gəlməsinin əsasını 25 mart 1957-ci ildə AİB-in yaranması haqqında Roma müqaviləsi qoymuşdur. Müəllif belə bir nəticəyə gəlir ki, azad ticarət zonası beynəlxalq inteqrasiyanın bir növüdür; AİB çərçivəsində vahid azad ticarət zonasının yaradılması bu birliyə üzv olan dövlətlər arasında inteqrasiya proseslərinin formalaşmasının və inkişafının ilkin və vacib bir mərhələsini təşkil edir; AİB çərçivəsində vahid azad ticarət zonası sürətlə formalaşmış və demək olar ki, artıq 1968-ci ilə tam qurulmuşdur; AİB çərçivəsində vahid azad ticarət zonasının formalaşması AİB hüdudlarında inteqrasiya proseslərinin daha dərin mərhələsinə keçməyə lazımi şərait yaratmışdır.

***"Avropa İttifaqında gömrük ittifaqının yaradılması"*** adlanan **II fəslin ikinci yarımfəslində** Aİ çərçivəsində gömrük ittifaqının yaradılmasının xüsusiyyətləri təhlil edilir. Aİ-nin formalaşmasında daha yüksək inteqrasiya mərhələləsi gömrük ittifaqının yaradılması ilə bağlıdır. Gömrük ittifaqı anlayışı altında iki və ya daha çox gömrük ərazilərin bir gömrük ərazisi ilə əvəzlənməsi başa düşülür. Gömrük ittifaqına üzv olan dövlətlər ümumi gömrük ərazi sərhədlərin perimetri üzrə eyni xarici gömrük tarifi müəyyən etməklə, üçüncü dövlətlərə qarşı vahid xarici ticarət siyasətini həyata keçirirlər. Gömrük ittifaqları təkcə qarşılıqlı xarici iqtisadi əlaqələrin liberallaşdırılmasını yox, həm də iqtisadiyyatın bütün sahələrinin inteqrasiya yolu ilə vahid iqtisadi məkanda birləşməsi məqsədini güdür. Əmtəəyə və xidmətlərə vahid tarifin müəyyən edilməsi ittifaqa üzv olan dövlətləri xarici asılılıqdan

qoruyur və ittifaqın daxilində rəqabətqabiliyyətli məhsulun istehsalı üçün əlverişli şərait yaradır.

Gömrük Ittifaqına üzv olan dövlətlər tərəfindən ümumi gömrük siyasəti aparılır.

Müəllif göstərir ki, gömrük ittifaqının yaradılması obyektiv səbəblər üzündən baş verməlidir və üzv olan dövlətlər üçün əlverişli olmalıdır. Məsələn, AİB çərçivəsində ixracatın payı daima artaraq 1958-ci ildə 40%-dən 1970-ci ilə 55%-ə çatmışdır. Bu artım tendensiyası 1981-ci ildə 53.2, 1982-ci ildə 54.4, 1983-ci ildə 55.0 və 1984-ci ildə 54.6 % təşkil edərək daima davam edirdi.

Müəllif belə bir nəticəyə gəlir ki, gömrük ittifaqları ATZ-yə nisbətən beynəlxalq inteqrasiyanın daha yüksək, dərin və mürəkkəb formasıdır. Dünyada yüzlərlə beynəlxalq ATZ olduğu halda cəmi bir neçə gömrük ittifaqı mövcuddur. AİB hüdudlarında Gömrük ittifaqı dünyada yaradılmış ilk gömrük ittifaqıdır. AİB hüdudlarında Gömrük ittifaqının formalaşması bu birlik çərçivəsində inteqrasiyanın daha yüksək mərhələsinə keçməsinin zəruri əsaslarını yaratdı.

***“Avropa İttifaqında ümumi bazarın formalaşması”*** adlanan **II fəslin üçüncü yarımfəsli** Aİ çərçivəsində ümumi bazarın formalaşması məsələlərinin araşdırılmasına həsr edilib.

AİB-də yeni səviyyədə inteqrasiya proseslərinin inkişafı mahiyyətcə vahid daxili bazarın yaradılması prosesinin yekunlaşdırılması zərurətini meydana çıxardı.

Ümumiyyətlə, ümumi bazar anlayışı əmtəənin, xidmətlərin və istehsalat amillərinin – sərmayenin və əmək resursların üzv dövlətlərin milli sərhədlərindən azad hərəkətini təmin edən və iki və ya daha çox dövlətin ərazisini əhatə edən vahid bir məkandır. Bununla bərabər, digər inteqrasiya formaları ilə nəzərdə tutulan şərtlər və amillərlə yanaşı ümumi bazar sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün vahid qanunvericilik bazasının yaradılmasını də nəzərdə tutur. Eyni zamanda, vahid ticarət siyasətini həyata keçirərək üzv ölkələr pul, kredit, büdcə və vergi siyasəti sahəsində öz müstəqilliyini saxlayırlar və bu sahələrdə öz siyasətini bir-biri ilə əlaqələndirirlər. Müəllif qeyd edir ki, elmi ədəbiyyatda bəzən ümumi bazar anlayışı ilə yanaşı vahid bazar və eyniləşdirilmiş bazar anlayışlarından və həmçinin, daxili bazar terminindən də istifadə edilir. Müəllifin fikrincə, bu terminlərə sinonim kimi baxmaq lazımdır.

Qeyd etmək zəruridir ki, AİB-də vahid bazarın yaradılmasının əsasını 25 mart 1957-ci il Roma müqaviləsi qoymuşdur. Bu isə, öz növbəsində, Birliyə üzv dövlətlər arasında inteqrasiya proseslərinin gələcək inkişafı üçün zəmin yaratmışdır.

Bütövlükdə götürdükdə, ümumi bazarın tam şəkildə formalaşması üçün Birliyə üzv dövlətlər arasında ticarət və iqtisadiyyatın digər sahələrində də maneələrin aradan qaldırılması üzrə AİB-in institusional orqanları tərəfindən 300-dən çox müxtəlif proqramlar tərtib edilmişdir. Bu maneələr XX əsrin 90-cı illərində demək olar ki, ləğv edilmiş və Birlik çərçivəsində praktiki olaraq vahid daxili bazarın yaradılması prosesi başa çatmışdır.

Müəllif belə bir nəticəyə gəlir ki, dövlətlər arasında qurulan ümumi bazar məkanı ATZ və gömrük ittifaqı ilə müqayisədə daha dərin iqtisadi inteqrasiya formasıdır; dünyada ilk dəfə dövlətlər arasında yaradılan ümumi bazar AİB çərçivəsində qurulmuşdur; ümumi bazarın bir neçə əsas ünsürlərini qeyd etmək olar. Bunlardan birincisi, gömrük ittifaqının mövcudluğu, ikincisi, üzv dövlətlərin qarşılıqlı fəaliyyətinin və rəqabətin aparılması qarşısında olan maneələrin ləğv edilməsi, üçüncüsü, üzv dövlətlərin Birliyin institusional orqanlarında antiinhisar, ticarət, nəqliyyat və s. sahələrdə razılaşdırılmış siyasətin aparılmasıdır. AİB çərçivəsində ümumi bazarın qurulması inteqrasiya proseslərinin elm, texnika, valyuta münasibətləri, ətraf mühitin qorunması və s. kimi digər yeni sahələrə yayılması üçün də əsas yaratmışdır.

**II fəslin dördüncü yarımfəsli** ***"Avropa İttifaqında iqtisadi və valyuta ittifaqının yaradılması"*** adlanır Burada Aİ-nin formalaşmasında növbəti inteqrasiya mərhələləsi - iqtisadi və valyuta ittifaqının yaradılması ilə bağlıdır. Belə bir inteqrasiya formasına bir neçə əhəmiyyətli ünsürlər xasdır. Belə inteqrasiya forması vahid iqtisadi və valyuta-maliyyə siyasətinin aparılmasını, milli, vergi, antiinflyasiya, valyuta və digər tədbirlərin əlaqələndirilməsini nəzərdə tutur. Təbii ki, bu birlik onun çərçivəsində bu quruma üzv olan ölkələrin ərazisində əmtəənin, xidmətlərin, istehsalat amillərin azad hərəkət etməsi səciyyələnir. Bununla yanaşı, iqtisadi və valyuta ittifaqında monetar və fiskal siyasəti eyniləşdirilir, vahid vergi dərəcələri və vergiqoyma strukturu müəyyənləşdirilir.

Müəllif İqtisadi və valyuta ittifaqının xüsusiyyətlərini araşdırır və inteqrasiya forması kimi iqtisadi və valyuta ittifaqın mahiyyətini müəyyən edir. Aİ çərçivəsində inteqrasiyanın iqtisadi və valyuta ittifaqı formasında əsasını 7 fevral 1992-ci ildə Maastrixt şəhərində imzalanmış Avropa İttifaqı haqqında Müqavilə qoymuşdur.

İqtisadi və valyuta ittifaqı formasında olan inteqrasiya birliyində valyuta ittifaqının yaradılması mərhələsi daha mürəkkəbdir. Bu və ya digər regionda valyuta ittifaqı vahid mərkəzi bank, dövriyyəyə buraxılmış vahid valyuta, razılaşdırılmış vahid valyuta-kredit siyasəti, əlaqələndirilmiş makroiqtisadiyyət siyasəti və s. daxil olmaqla vahid regional valyuta sisteminin yaradılması deməkdir.

Müəllif belə bir nəticəyə gəlir ki, üzv dövlətlərin iqtisadi və valyuta ittifaqı formasında olan inteqrasiyası beynəlxalq inteqrasiyanın ən yüksək səviyyəsində olan formasından biridir. Dünyada iqtisadi və valyuta ittifaqı adlanan bir sıra qurumların olmasına baxmayaraq onların mahiyyətcə inteqrasiya formasından biri olan iqtisadi və valyuta ittifaqının olmasına dəlalət etmir. Aİ çərçivəsində formalaşmış iqtisadi və valyuta ittifaqı dünyada ən inkişaf etmiş iqtisadi və valyuta ittifaqıdır. Aİ çərçivəsində üzv dövlətlərin iqtisadi və valyuta ittifaqının formalaşması bu dövlətlərin inteqrasiyasının yeni bir mərhələsinə - tam iqtisadi və siyasi inteqrasiya formasına keçid üçün lazımi əsas və şərtlər yaratmışdır.

***"Avropa İttifaqında tam iqtisadi və siyasi inteqrasiya"*** adlanan **II fəslin beşinci yarımfəsli** Aİ çərçivəsində tam iqtisadi və siyasi inteqrasiyanın təhlil edilməsinə həsr edilib.

İnteqrasiya prosesinin ən yüksək səviyyəsi üzv dövlətlərin tam iqtisadi və siyasi ittifaq çərçivəsində birləşməsini nəzərdə tutur. İlk növbədə qeyd etmək lazımdır ki, tam iqtisadi və siyasi ittifaqın bir hissəsi olan iqtisadi birliyin əsas məqsədi razılaşdırılmış və ya vahid iqtisadi siyasətin aparılması və pul-kredit, vergi, büdcə, valyuta və s. sahələrdə ümumi və ya bir-birinə uyğunlaşdırılmış qanunvericilik bazasının yaradılmasından ibarətdir. Əsasən İttifaqın ümumi institusional orqanları bütövlükdə ittifaqın iqtisadi maraqlarını həyata keçirir. Bu isə öz növbəsində üzv dövlətlərin siyasi ittifaqının yaradılmasına da lazımi şərait yaradır.

Aİ-nin çərçivəsində tam iqtisadi və siyasi inteqrasiyanın qurulması inteqrasiyanın ən yüksək mərhələləsidir. Müəllif Aİ çərçivəsində tam

iqtisadi və siyasi inteqrasiyanı səciyyələndirən bir sıra əlamətləri qeyd edir.

Müəllif belə bir nəticəyə gəlir ki, beynəlxalq iqtisadi inteqrasiyanın inkişafı nəticəsində ümumi maraqlara və məqsədlərə nail olmaq üçün ümumi strategiyaya malik olan üzv ölkələrin qarşılıqlı əlaqələrində müəyyən amillərin və iqtisadi şərtlərin əmələ gəlməsi tədricən belə ölkələrin sosial-iqtisadi və siyasi sahələrdə fəaliyyətinin bir-biri ilə bağlılığına gətirir. Aİ çərçivəsində dövlətlərin tam iqtisadi və siyasi ittifaqı qurulmuşdur. Buna ümumi xarici siyasət və təhlükəsizlik siyasətinin aparılması, ümumi vətəndaşlıq institutunun təsis edilməsi, vahid institusional orqanların yaradılması və s. dəlalət edir. Belə ittifaqda üzv dövlətlər ümumi və razılaşdırılmış siyasət həyata keçirirlər. Bununla yanaşı, Aİ-yə üzv dövlətlər arasında müəyyən ziddiyyətlər də mövcüddur. Hətta müəyyən hallarda belə ziddiyyətlər üzv ölkələri bu qurumu tərk etməyə belə gətirə bilər. Böyük Britaniyanın nümunəsi buna əyani sübutdur.

Dissertasiyanın **III fəsli "Azərbaycan Respublikası və Avropa İttifaqı arasında inteqrasiya proseslərinin inkişafı"** adlanır və dörd yarımfəsildən ibarətdir. **Birinci yarımfəsild'-*"Azərbaycan Respublikası və Avropa İttifaqı arasında münasibətlərin yaranması və formalaşması"*** məsələləri tədqiq edilir. Müəllif qeyd edir ki, Azərbaycan və Aİ arasında münasibətlər tarixi Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra başlayır. Bu münasibətlərin qurulmasında Ümummilli lider Heydər Əliyevin xüsusi rolu olmuşdur. Burada Azərbaycan Respublikası və Aİ arasında müxtəlif proqramları, o cümlədən, Aİ Fövqəladə Yardım, TACİS, TRACECA, İNOGATE, ECHO, ERASMUS MUNDUS, TEMPUS və s. proqramları araşdırılır. Həmçinin, müəllif Avropa Qonşuluq Siyasəti (AQS) çərçivəsində 14 iyun 2006-cı ildə imzalanmış Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planı təhlil edir. Bununla yanaşı, Aİ tərəfindən "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində Aİ və Azərbaycan arasında münasibətlərin araşdırılmasına xüsusi diqqət yetirilir. Müəllif vurğulayır ki, Aİ və Azərbaycan arasında münasibətlər həm siyasət, həm də iqtisadiyyət sahəsində kifayət qədər intensiv inkişaf edir. Bununla yanaşı, qeyd edilir ki, Aİ-nin Azərbaycan Respublikası ilə qarşılıqlı münasibətlərində xüsusi yeri energetika sahəsində əlaqələr tutur və bu münasibətləri ətraflı tədqiq edilir. Müəllifin fikrincə 44 günlük 2-ci

Qarabağ müharibəsində Azərbaycan ordusunun işğalçı Ermənistan silahlı qüvvələri üzərində parlaq qələbəsi nəticəsində Azərbaycan - Aİ arasında əlaqələrin, ilk növbədə iqtisadi münasibətlərin inkişafına və daha da dərinləşməsinə imkan yaranmışdır. Bəllidir ki, Azərbaycan dövləti 44 günlük Vətən müharibəsində qazandığı qələbə ilə bu regionda yeni bir reallığın yaranmasına nail oldu. Belə ki, 2-ci Qarabağ müharibəsinin yekunları üzrə Azərbaycan Respublikası, Rusiya Federasiyası və Ermənistan Respublikası tərəfindən birgə qəbul edilmiş bəyanatda, o cümlədən, Zəngəzur nəqliyyat dəhlizinin fəaliyyət göstərməsi haqqında müddəa da öz əksini tapmışdır. Bu sənəddə nəzərdə tutulan Zəngəzur nəqliyyat dəhlizinin açılması Çindən, Asiyanın digər ölkələrindən və Sakit okean hövzəsi dövlətlərindən, Mərkəzi Asiya regionuna daxil olan ölkələrin ərazilərindən istifadə olunmaqla, yüklərin bu nəqliyyat dəhlizilə, o cümlədən, Avropa İttifaqına daxil olan ölkələrə daşınması iqtisadi cəhətdən böyük mənfəətlərin əldə edilməsinə imkan yaradacaq. Məhz Zəngəzur dəhlizinin açılması və Azərbaycandan keçən digər tranzit nəqliyyat dəhlizləri dünyanın nəqliyyat xəritəsini yenidən formalaşdıracaq. Azərbaycan Respublikası və Aİ arasında münasibətlər sadə əməkdaşlıq formasında deyil. Belə münasibətləri bir çox inteqrasiya ünsürləri və prosesləri səciyyələndirir. Azərbaycan Respublikası və Aİ arasında inteqrasiya prosesləri müxtəlif sahələri, o cümlədən, siyasət, iqtisadiyyat, infrastruktur, təhlükəsizlik, elmi-texniki, mədəniyyət və s. sahələri də əhatə edir. Azərbaycan Respublikası və Aİ arasında münasibətlər strateji xarakter daşıyır. Bu isə Azərbaycan Respublikasının Avropa məkanına inteqrasiyanın həlledici şərtidir.

***"Azərbaycan Respublikası və Avropa İttifaqı arasında münasibətlərin müqavilə-hüquqi bazası"*** adlanan dissertasiyanın **III fəslinin ikinci yarımfəslində** Azərbaycanın Aİ ilə münasibətlərinin müqavilə-hüquqi bazası təhlil edilir. Müəllif qeyd edir ki, Azərbaycan Respublikası və Aİ arasında münasibətlər müxtəlif sahələrdə inteqrasiya proseslərinin dərinləşməsi ilə səciyyələnir və müxtəlif beynəlxalq aktlar ilə tənzimlənir. Belə aktlara Aİ-nin müxtəlif proqramlarını, hər bir ölkə ilə Fəaliyyət Planlarını aid etmək olar.

Bununla yanaşı, müəllif belə aktlar arasında əsas yeri tutan, rəsmi "Tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş" (TƏS) adlanan müqaviləni ətraflı təhlil edir. Aİ və Azərbaycan arasında TƏS onların

əməkdaşlığının əsası kimi də çıxış edir. Təbii ki, TƏS-in imzalanmasından sonra müəyyən vaxt keçdiyindən və yeni halların yaranması səbəbindən tərəflər arasında münasibətlərin tənzimlənməsinə yönələn yeni bir sənədin imzalanmasına zərurət yarandı. Belə sənədin imzalanması üzrə danışıqlar 7 fevral 2017-ci ildən, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Brüsselə səfərindən sonra başlamışdır.

Müəllif bu yarımfəsildə aparılmış təhlillər əsasında bir sıra nəticələrə gəlir:

1. Azərbaycan Respublikası və Aİ arasında münasibətlər bir sıra beynəlxalq xarakterli aktlarla tənzimlənir. Belə aktların hüquqi qüvvəsi müxtəlifdir. Belə ki, Azərbaycan Respublikası və Aİ arasında qəbul edilmiş bir sıra aktlar əsasən tövsiyəedici xarakter daşıyır. Bununla yanaşı, Aİ-nin Azərbaycan Respublikası ilə imzaladığı Fəaliyyət Planından irəli gələn öhdəliklər öz hüquqi qüvvəsinə görə bir sıra hallarda beynəlxalq hüquqi xarakter daşıyır və onun tərəflərinə dair məcburidir.

2. Azərbaycan Respublikası və Aİ arasında münasibətlərin tənzimlənməsində tərəflər arasında bağlanmış TƏS xüsusi yer tutur. Bu sənəd öz hüquqi təbiətinə görə beynəlxalq hüquqi müqavilədir və onun tərəflərinə aid bir sıra məcburi xarakterli öhdəliklər yaradır.

**III fəslinin üçüncü yarımfəsli *"Azərbaycan Respublikası və Avropa İttifaqı arasında münasibətlərin bazasının yeniləşdirilməsini zəruri edən amillər"*** adlanır.

Müəllifin fikrincə, Aİ və Azərbaycan Respublikası öz münasibətlərinin inkişafı və inteqrasiya proseslərinin dərinləşdirilməsi məqsədi üçün onlar arasında mövcud olan bazanın yeniləşdirilməsi zərurəti yaranır. Müəllif bunu şərtləndirən bir sıra obyektiv səbəb və amilləri təhlil edir. *Birincisi,* Aİ və Azərbaycan arasında münasibətləri tənzimləyən TƏS-in bağlanmasından 20 ildən çox vaxt keçib və bu saziş artıq tərəflər arasında qarşılıqlı münasibətlərin yüksək səviyyəsinə tam uyğun gəlmir. Bu müddət ərzində Aİ və Azərbaycan arasında əhəmiyyətli dərəcədə müxtəlif sahələrdə əməkdaşlıq təcrübəsi toplanıb. *İkincisi,* SSRİ-nin dağılması çox surətlə baş verdi və bu səbəbdən Aİ-nin bu regionla və yeni yaranmış postsovet ölkələri ilə müəyyən qarşılıqlı fəaliyyət strategiyası yox idi. Digər tərəfdən XX əsrin 90-cı illərində MŞA ölkələri hesabına baş vermiş Aİ-nin

genişlənməsi bu inteqrasiya birliyinin inkişafının prioritet, əsas istiqamətlərindən birinə çevrilir. *Üçüncüsü,* Aİ-nin ərazisi böyümüşdür. Bu inteqrasiya birliyinin artıq 6 genişlənmə dalğası olmuşdur və Aİ-yə üzv dövlətlərin sayı 27-ə çatmışdır. *Dördüncüsü*, bu müddət ərzində aparılmış islahatlar nəticəsində Azərbaycanın inkişafında əhəmiyyətli dərəcədə dəyişikliklər baş vermiş və bizim ölkənin siyasi və iqtisadi potensialı xeyli artmışdır. Aİ və Azərbaycan arasında TƏS-in bağlanması dövründə ölkəmiz keçid iqtisadiyyatına malik olan ölkə kimi dəyərləndirilirdi. Lakin bu gün Aİ Azərbaycanı bazar iqtisadiyyatına malik olan dövlət kimi tanıyır. Azərbaycanın valyuta ehtiyatlarının artması tendensiyası davam edir. *Beşincisi,* müasir dövrdə Aİ və Azərbaycan arasında daha çox siyasi və iqtisadi inteqrasiya mövcuddur və sıx qarşılıqlı faydalı əlaqələr qurulub. Aİ-nin Azərbaycanın əsas kapitalına investisiyaları təxminən 20 mlrd. ABŞ dolları təşkil etmişdir. Hal-hazırda Azərbaycanda 1700 Avropa şirkəti fəaliyyət göstərir. *Altıncısı,* Aİ və Azərbaycan arasında TƏS-də öz əksini tapmış bir sıra müddəalar artıq köhnəlmiş və öz əhəmiyyətini itirmişdir. *Yeddincisi,* qüvvədə olan TƏS Aİ və Azərbaycan arasında formalaşmış münasibətlərin bütün gerçəkliyini əks etdirmir. Belə ki, Aİ və Azərbaycan arasında TƏS-in imzalanmasından sonrakı dövrdə Aİ Avropa Qonşuluq Siyasəti konsepsiyasını tərtib etmişdir. Bu konsepsiya Aİ-nin qonşu ölkələrə dair yeni yanaşmasını təşkil edir.

Müəllif belə bir nəticəyə gəlir ki, Azərbaycan Respublikası və Aİ arasında mövcud olan TƏS-in dəyişdirilməsi və tərəflər arasında yeni məcburi xarakter daşıyan sazişin imzalanması zərurəti yaranır. Müasir dövrdə Azərbaycan Respublikası və Aİ arasında bir çox qarşılıqlı fəaliyyət sahələrində tərəflər arasında yeni vəzifələr və hədəflər formalaşır. Onların həlli edilməsi tərəflər arasında inteqrasiya proseslərinin daha da dərinləşməsini və yeni əməkdaşlıq sahələrinin yaranmasını tələb edir. Azərbaycan Respublikası və Aİ arasında yeni saziş tərəflər arasında əməkdaşlığın əsaslarının modernləşdirilməsinə və həmçinin interqasiya proseslərinin inkişafına yönəlməlidir.

**III fəslinin dördüncü yarımfəsli *"Azərbaycan Respublikası və Avropa İttifaqı arasında münasibətlərin inkişaf etdirilməsi perspektivləri"*** adlanır.

Müəllif burada Azərbaycan Respublikası və Aİ arasında əməkdaşlığın inkişaf edilməsi və dərinləşdirilməsinin müxtəlif mümkün istiqamətlərini təhlil edir.

Birinci istiqamət, Azərbaycan Respublikası və Aİ arasında assosiativ müqavilənin imzalanması ilə bağlıdır. İkinci istiqamət, Azərbaycan Respublikası və Aİ arasında qarşılıqlı münasibətlərin əsasını yeniləməkdən ibarətdir. Buna mahiyyəti fərqli olan yeni tərəfdaşlıq və əməkdaşlıq haqqında sazişin bağlanması və ya tərəflər arasında mövcud olan TƏS-ə əlavə protokolun imzalanması və ya modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında yeni sazişin imzalanması vasitəsilə nail olmaq olar. Bu halda bu sənədin əsas məqsədi müasir tələblər və baş vermiş dəyişikliklər nəzərə alınmaqla Azərbaycan Respublikası və Aİ arasında TƏS-in müddəalarının yenilənməsidir.

Müəllif belə bir nəticəyə gəlir ki, Azərbaycanın Aİ-yə "Modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında Saziş" adlanan yeni müqavilə bağlanması daha məqsədəyğundur. Bununla belə, müəllifin fikrincə, Azərbaycan və Aİ arasında yeni modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında saziş bir sıra əhəmiyyətli parametrlərə malik olmalıdır. Sənədin adı Azərbaycan və Aİ arasında münasibətlərin mahiyyətini əks etdirməlidir. Bu səbəbdən "Modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında saziş" ifadəsini uğurlu hesab etmək olar. Sazişin adında "modernləşdirilmiş" terminin əks etdirilməsi yeni sazişdə tərəflər arasında qarşılıqlı fəaliyyət səviyyəsində müasir reallıqları əks etdirir. Bununla belə, yeni Modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında sazişdə Azərbaycan Respublikası və Aİ arasında qüvvədə olan TƏS-in müddəalarının varisliyi prinsipinə əməl edilməlidir. Digər tərəfdən, yeni sazişin müddəaları qüvvədə olan TƏS-in müddəalarının inkişafına yönəlməlidir. Belə yanaşma tərəflər arasında vacib əhəmiyyət kəsb edən inteqrasiya ünsürlərini saxlamaq imkanı verir. Həmçinin, yeni saziş tərəflər arasında konkret sahə müqavilərin bağlanması imkanını nəzərdə tutmalıdır.

Lakin Azərbaycan Respublikası və Aİ arasında Modernləşdirilmiş strateji tərəfdaşlıq haqqında sazişin bağlanması heç də demək deyil ki, gələcəkdə Azərbaycan Respublikası və Aİ arasında münasibətləri tənzimləyən yeni baza sazişinin bağlanmasına zərurət yaranmayacaq.

Məsələn, bu Azərbaycan Respublikası və Aİ arasında azad ticarət zonasının yaradılmasına dair müqavilə də ola bilər.

Disserasiyanın **Nəticə** hissəsində hazırki tədqiqatın aparılması nəticəsində əldə edilmiş əsas məsələlər ümumiləşdirilir və işin yekunları əks olunur.

**Dissertasiyanın əsas nəticələrini əks etdirən nəşr olunmuş elmi əsərlər:**

1. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlığın formalaşması və inkişafı // Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutu, Elmi əsərlər, 2016. N 2. - s. 132-139
2. Avropa İttifaqında inteqrasiya proseslərinin zəminləri və şərtləri // Bakı, Sivilizasiya jurnalı, 2017. N 2. - s. 132-140
3. Avropada İttifaqında inteqrasiya proseslərinin həyata keçirilməsinin əsas siyasi və hüquqi mərhələləri // Bakı, Sivilaziya jurnalı, , 2017. N 3. - s. 33-43
4. Avropa İttifaqı çərçivəsində inteqrasiya proseslərinin həyata keçirilməsinin əsas mərhələləri // Bakı, Geostrategiya jurnalı, 2017. N 1. - s. 57-61
5. Необходимость обновления механизма сотрудничества и интеграции между Азербайджаном и ЕС // Киев, Гилея, - 2017, - с. 491-495
6. Beynəlxalq münasibətlərdə inteqrasiya anlayışı // Azərbaycanda multikulturalizm və mədəni müxtəlifliyin turizmin inkişafına təsiri mövzusunda elmi konfransının materialları. Bakı, 26 may 2017. – s. 82-85
7. Основные факторы, определяющие необходимость обновления базы взаимоотношений между Азербайджаном и ЕС // Scientific achievements of the third millenium. VI İnternational Scientific conference. 30.09.2017. Part 1. Chicago, 2017, - c. 5-10
8. The development of integration processes between the Republic of Azerbaijan and the EU // International Journal of Information Research and Review 2, -2018, vol. 05, issue 06 - p. 5555-5563.
9. Основные симптомы экономической и политической интеграции в Европейском Союзе // Актуальные вопросы теории и практики развития научных исследований. Международная научно – практическая конференция. 19 апреля 2021. Пенза, Российская Федерация. – с. 45-52.

10.Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətlərinin inkişafı perspektivləri (nəzəri aspektlər) // "Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə" jurnalı, Bakı. – 2021.səh.257-27
11. Avropa İttifaqı çərçivəsində inteqrasiya prosesləri: problemlər və onların həlli perspektivləri. Elm və Təhsil nəşriyyatı Bakı- 2021.223 səh.

Dissertasiyanın müdafiəsi " 19 " aprel 2022-ci il saat 14:00-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ1001, Bakı şəhəri, Lermontov küçəsi, 74
Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.
Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat " 18 " mart 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.03.2022
Kağızın formatı:  A5
Həcm: 51004
Tiraj:80